# BU NƏĞMƏM SƏNƏDİR, DOĞMA NAXÇIVAN!

*"Naxçıvan... Azərbaycanın cənubuna bitişik, şimalından yad nəfəsiylə ayrılmış qədim, ulu Vətən torpağı! Dadlı-duzlu, bərəkətli, cövhərli torpaq! Ulu tarixi abidələrin, böyük sənətkar, alim övladların - güvənclərin öz yerində! Sənin yenə də ümidin - Vətən eşqini bayraq-bayraq başı üstə qaldıran qaynar təbiətli, narahat ürəkli, ayıq-sayıq oğullarındır. Sənə tərəf çoxdan boylanan, indisə yumruğuna dirənən yağı dişləri qıcana-qıcana qalıb. Sən gərildikcə, sıxıldıqca qranit yumruğa dönmüş Odlar torpağısan".*

*Naxçıvan elinin Şərur torpağında yaşayan şair-publisist İbrahim Yusifoğlu Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi münasibətilə "Bu nəğməm sənədir, doğma Naxçıvan" adlı poema və silsilə şeirlər yazmışdır. Onlardan bir neçəsini oxucularımıza təqdim edirik.*

## BÜTÜN İSTSSYİNSS ÇATIB NAXÇIVAN

Bu gün yer kürəsi öz məhvərində,
Ulu bir diyarla öyünür hər an.
Dünyanın döyünən düz ürəyində
Özünə yer tutub, durur Naxçıvan.

Tanrıdan pay gələn sərvət-varı var,
Tükənməz qoynunda gövhəri-zəri.
Boyca kiçik olan müqəddəs torpaq,
Bəxş edib cahana böyük Heydəri.

Elə o dühayla ən ağır anda,
Zamanla üz-üzə durdu Naxçıvan.
Heydər Əliyevin davamçısıyla,
Yeni günlərini qurdu Naxçıvan!

Qəlblər ovsunlayır torpağı, daşı,
Şəfəqə bələnir doğulanda dan.
Çox qədim olsa da tarixdə yaşı,
Gənclik libasını geyib Naxçıvan!

Şərqin qapısıdı, Nuhun yurdudu,
Nəsillər yaşayır "Gəmiqaya" da.
Məğrur "Əlincə" di, qalib ordudu,
Sədərək sınmadı düşmənə, yada.

Mənim Naxçıvanım Odlar Yurdunun,
Qeyrət qalasıdı, ər balasıdı.
Günəş qürub çağı büsbütün onun,
Çöhrəsi Şahbuzun dağ lalasıdı.

Bol nemət yetirən varlı elləri,
Kəhraba üzümlü, heyva, narlıdı.
Sevinc təknəsidi gələn illəri,
Ordubad bəhrəli, Şərur barlıdı.

Qoynunda çağlayan "Qızlar bulağı",
Sevən ürəklərə məhəbbət ələr.
"Sirab", "Badamlı" tək əvəzsiz varı,
Çoxları dərdinin dərmanı bilər.

Memar Əcəminin gənc nəvələri,
Tikirlər, qururlar, gözəlləşibdi.
Müstəqil günündən ta üzü bəri
Gözəl məmləkətə bərabər - birdi.

... Ay kimi nur saçar, ulduztək yanar,
Çiçək dənizidi qoynunda hər yan.
Onu hər kim görsə bəxtəvər sanar,
Bütün istəyinə çatıb Naxçıvan.

## ŞƏRURUN

Dədə Qorqud gəzən Oğuz elimdi.
Uludu torpağı, daşı Şərurun.
Dili Türkün dili - ana dilimdi,
Qədimdən-qədimdi yaşı Şərurun.

Burda arxalanıb dağlara dağlar,
Dərin dərələrdə çayları çağlar.
Torpağı göynəsə göyləri ağlar,
Arpaçay sayılır qaşı Şərurun.

Tanrı özü bilən dərd göndəribdi,
Neçə fəlakəti sərt göndəribdi,
Namərdin önünə mərd göndəribdi,
Bəlalar çəkibdi başı Şərurun.

Ürək ovsunludu baharı, yayı,
Mavi səmasında Ulduzu, Ayı.
Yoxsa da sərvətdə payızın tayı,
Zərgər naxışlıdı qışı Şərurun.

Gəzdikcə görərsən barlı düzləri,
Zəhmətlə nurlanan gülər üzləri.
Tanrı yaradandan ta üzü bəri,
Yeyilir ellərdə aşı Şərurun.

Yeraltı, yerüstü varı tükənməz,
Zirvədən qartalı, qarı tükənməz,
Çiçəyin üstündən arı tükənməz,
Ətrindən tanınır balı Şərurun.

Min büsat qurulur hər bucağında,
Güllər ətir saçır tər qucağında,
Ömrünün gəncləşən səhər çağında,
Qəlblər ovsunlayır halı Şərurun,

Dədə Qorqud gəzən Oğuz elidi,
Dili ana dili - türkün dilidi.
Məğrur Naxçıvanın durna telidi,
Qədimdi, uludu yaşı Şərurun.

## ƏLİNCƏ

Ürəkdə qan coşar, ilham çağlayar,
Bu qədim qalanı seyrə gəlincə.
Hər kəsi özünə qəlbən bağlayar,
Qürur mənbəyimiz məğrur Əlincə.

O adi dağ deyil, Nəqşicahanın,
Bütövlük, mətinlik, güc simvoludu.
Namərdlər önündə dik tutub başın,
Əyilməzlik rəmzi, haqqın yoludu.

Əlincə ən acgöz, zalım şahları,
Tanrıdan güc alıb, bələyib qana.
Bədniyyət, qaniçən Miranşahları
Qoymayıb illərlə girə qoynuna.

Qalada igidlər döyüş anında,
"Cəngi" səsləndirib, söz söyləyiblər.
Kimin gücü olub hələ canında,
Düşmənin üstünə od ələyiblər.

Burda sipər olub hər daş, hər qaya,
Düşmənin yolunu bağlayıbdılar.
Barıt qarışsa da torpağa, çaya,
Güllər öz ətrini saxlayıbdılar.

Daha qorxusu yox yad qüvvələrdən,
Bu yurda göz dikmək çətinləşibdi.
Bu günkü qayğıdan, saf məhəbbətdən,
Əlincə daha da mətinləşibdi!

## GÜNNÜTÜM

Salam, Oğuz eli, Vətən torpağı,
Salam, Dədə Qorqud gəzən Günnütüm.
Düşmən caynağında qalan çağları,
Halı qəlbimizi üzən Günnütüm.

Sən türk torpağısan, türk dillisən sən,
Babam Xətainin sevdiyi yersən,
"Koroğlu" zağalı tarixsən, sirsən-
Həm dağlı, təpəli, düzən Günnütüm.

Ömrün şən nəğməli gənclik illəri,
Dərdik qoynundakı əlvan gülləri.
"Başbulaq" başında atıb dərd-səri-
Süfrəyə bal, qaymaq düzən Günnütüm.

Gəlmişik, sarılaq bu gün boynuna,
Gəlmişik, son qoyaq namərd oynuna,
Kövrəlmə, yaxşı bax coşan qoynuna,
Nəvələr əl tutub süzən Günnütüm.

Əsgər oğulların "Qızılqaya"da,
Baxırlar Arpaya, Arpaçaya da,
Düşmən gizlənsə hində, tayada,
Dinərsə olacaq süzən, Günnütüm.

Küskün taleyinlə barışacaqsan,
Doğma el-obana qarışacaqsan,
Cocuq-Mərcanlıyla yarışacaqsan-
Milli naxışlarla bəzən, Günnütüm.

...Salam, Naxçıvanın əzəl torpağı,
Salam, Xan çinarın solmaz yarpağı,
Ən uca zirvəndə Vətən bayrağı -
Düşməni köksündən əzən Günnütüm,
Qeyrəti dillərdə gəzən Günnütüm!

## OĞUZ TORPAĞIDIR ÖZÜ KƏRKİNİN

Adı xatırlanmır,dərdi çəkilmir,
Deyilmir dünyada sözü Kərkinin.
Bir nöqtə boyda da şərti çəkilmir,
Yoxdu xəritədə özü Kərkinin.

Yağıya Tejgartək dağı qalıbdı,
Almalı, heyvalı bağı qalıbdı,
Nehrədə çalxanan yağı qalıbdı,
Sönüb köksümüzdə odu Kərkinin.

Baxır, Sədərəyə görə bilməyir,
Söyür, söydüyünü söyə bilməyir,
Dizinə, başına döyə bilməyir,
Tutulub hər iki gözü Kərkinin.

Qalıbdı köməksiz yad caynağında,
Çəkir ürək yaxan dad caynağında,
Yaşayır gavurun ad caynağında,
Yamanca tutqundu üzü Kərkinin.

Adına ən gözəl kənd salınsa da,
Hər bir övladına ev alınsa da.
Boyu xəritədən lap salınsa da,
Oğuz torpağıdır özü Kərkinin.

Halı xatırlanmır, dərdi çəkilmir,
Tarlası şumlanmır, düzü əkilmir,
Nə günah eyləyib, şəkli çəkilmir,
Yoxdu xəritədə sözü Kərkinin.

## AXURA KSSNDİ

Şərur ellərinin gen qucağında,
Dağlara sığındın, söylə, nədəndi?!
Tanrının payıdı, hər bucağında,
Bulaqlar çağlayır, Axura kəndi!

Qoynun sərvətlidi, tükənməz varın,
Günəşin nurludu, bəmbəyaz qarın,
Buluda dayanan şiş qayaların,
Göyləri saxlayır, Axura kəndi!

Çayların qovuşur dərələrində,
Pələnglər nərildər meşələrində,
Ceyranlar, cüyürlər bərələrində,
Ürəklər ovlayır, Axura kəndi!

Oğuz igidləri "Qazan bağı"nda,
"Danaqalası"nda, "Haçadağ"ında,
Vətənin qorxulu, ağır çağında,
Düşməni oxlayır, Axura kəndi!

Qoynunda lalələr qan rəngindədi,
Qızların bənizi dan rəngindədi,
Gülün ətirlisi çələngindədi,
Sevənlə qoxlayır, Axura kəndi!

"Noxudlu" düzündə kəkliklər səkir,
Arılar güllərin ətrini çəkir,
Adamlar qoynunda min nemət əkir,
Bol məhsul toplayır, Axura kəndi!

"İydəli dərə" nin iydəsi sarı,
Bağında alması, heyvası, narı,
Sevib-seviləndi kənd adamları,
Cənnətə oxşayır Axura kəndi!

## ORDUBADIN "GÖYGÖL"Ü

Oynun olsun, Elxan müəllim,
Uyduq sənin son sözünə.
Səhər üzü biz yol aldıq,
Ordubadın "Göygöl"ünə.

Gözlərimiz doymayırdı,
Bu yerlərin bağlarından.
Bir əzəmət duyulurdu,
Sıralanan dağlarından.

Elxan qağa qoymadı ki,
Maşınımız aza yolu.
Düz vaxtında xatırlatdı:
- Gedəcəyik Tivi yolu.

Baş Dizədə bir səs gəldi,
Elə bildik Qu səsidi.
Baxıb gördük ləpələnən,
Gilançayın su səsidi.

Qarşımızda cilvələnib,
Ləpələndi Biləv gölü.
Gur işığa qərq eyləyib,
Səhərəcən oba, çölü.

Qarşımızda qayaların,
Zirvələri duman, sisdi.
Gəlib çatdıq qədim kəndə,
Dedilər ki, adı Bistdi.

Burda şair Sadıq kişi,
Şənimizə söz söylədi.
Bir kənara qoydu işi,
Bizim ilə yol eylədi.

Nürgütün buz bulağından,
Ovuc dolu su da içdik.
Mənzilə tez çataq deyə,
Təpələrdən kəsə keçdik.

Uzağaydı səfərimiz,
Çay içməyə vaxt tapmadıq.
Seçdik elə bir maşın ki,
Dağ yolunda dayanmadıq.

Qoyun-quzu ulduz olub,
Təpələrə ələnmişdi.
Qarşımızda yal-yamaclar,
Ağ buluda bələnmişdi.

Tuş da gəldik çobanların,
İtlərinin hikkəsinə.
İtlər bizi "bağışladı",
Çobanların fit səsinə.

Yolçuları dinməz görüb,
Danışmırdı Elxan qağa.
Nəzərini zilləmişdi
Zirvələri qarlı dağa.

...Maşınımız nəfəs dərdi,
Önümüzdə dərə suydu.
Möcüzələr adasında,
Bu bir Tanrı tablosuydu.

Elxan qağa dil açmışdı:
- Bu havadan, sudan dadın.
Qarşımızda ləpələnən
"Göygöl"üdü Ordubadın.

Yayın qızmar bir günündə
Tir-tir əsib, üşüyürdük.
Tullanırdıq daşdan-daşa,
Sahil boyu yüyürürdük.

Neçə əlvan güllər dərdik,
"Göygöl"ün göy sinəsindən.
Doyanmadıq açdığımız
Pendir, lavaş süfrəsindən.

Sini dolu qar götürdük,
Dağların daş ətəyindən.
Pay verdilər beçə balı
Arıların pətəyindən.

Bax, beləcə gün yaşadıq,
Bu yerlərin dağ, çölündə.
Gözəlliyə heyran qaldıq,
Ordubadın "Göygöl" ündə.

*İbrahim YUSİFOĞLU*